Müraciətlərin əksəriyyəti yeni dərs ilinin başlanması ilə əlaqədar sorğu xarakterlidir. Sorğuların əksər hissəsi ümumi təhsil məktəbləri, orta ixtisas və ali təhsil müəssisələri ilə bağlıdır. Sorğular müəllimlərin dərs bölgüsü, şagirdlərin dərsliklərlə təminatı, məktəbli forması, ümumi təhsil məktəblərinə şagird qəbulu, şagirdlərin bir məktəbdən digərinə köçürülməsi, ümumi təhsil məktəb müəllimlərinin əmək haqqının, məzuniyyət pulunun hesablanması və digər məsələlərlə əlaqədardır. Digər sorğular tələbələrin ali və orta ixtisas məktəblərinə köçürülməsi, bərpası, təhsil haqqının ödənilməsi, bakalavr və magistr pillələrində ixtisaslaşma, təhsil sənədlərinin tanınması barədədir.

Ötən ay daxil olmuş 69 şikayət məzmunlu müraciətin təhlili göstərir ki, onların əksəriyyəti yenə də ümumi təhsil məktəbləri ilə əlaqədardır. Belə ki, ümumi təhsil məktəbləri üzrə Bakı şəhərindən 29, digər şəhərlərdən 7 (Sumqayıtdan 3, Gəncədən 2, Mingəçevir və Şirvan şəhərlərinin hər birindən 1), Astara və Ağstafa rayonlarının hər birindən 3, Gədəbəy, Sabirabad, Samux, Qəbələ rayonlarının hər birindən 2, Abşeron, Lənkəran, Masallı, Şəki, Şəmkir, Cəlilabad, Biləsuvar, Hacıqabul, Kürdəmir, Balakən, Goranboy, Neftçala, Beyləqan, Laçın, Oğuz rayonlarının hər birindən 1 şikayət məzmunlu müraciət daxil olub.

Ümumi təhsil məktəbləri ilə bağlı şikayətlərin əsas hissəsini məktəb direktorlarının idarəetmədə yol verdiyi nöqsanlar, dərs bölgüsündən narazılıq, bir sıra məktəblərdə tədrisin keyfiyyətsiz təşkili, müəllimlərin əmək haqqından qanunsuz tutulmalar ilə əlaqədardır. Qeyd etmək lazımdır ki, bu müraciətlərin araşdırılması zamanı yenə də xeyli sayda müraciətin anonim olduğu aşkarlanıb, böyük bir qisim müraciətdə qeyd olunan faktlar öz təsdiqini tapmayıb.

Ali təhsil müəssisələri ilə bağlı daxil olan 5 şikayət xarakterli müraciətin 3-ü dövlət, 2-si isə özəl tədris ocaqlarının fəaliyyəti barədədir. Bu müraciətlər dövlət və özəl ali təhsil müəssisələrində dövlət sifarişi üzrə təhsil alan tələbələrin təqaüdlərinin və təhsil sənədlərinin gecikdirilməsi, yay semestri təşkil olunmuş ali təhsil müssisələrində imtahan nəticələri ilə əlaqədar apelyasiya şikayətlərinə baxılması qaydalarının pozulması ilə əlaqədar olub.

Daxil olan bütün müraciətlər qeydə alınıb, araşdırılıb, “Qaynar xətt” xidmətinin əməkdaşları və Nazirliyin müvafiq struktur bölmələri tərəfindən cavablandırılıb.